

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 192 (21.093)

*9 oktyabr 2014-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Litva Respublikasının milli müdafiə naziri Yuozas Olekasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan Respublikası ilə Litva Respublikası arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olundu, Müdafiə nazirlikləri arasında əməkdaşlığın bu əlaqələrin genişləndirilməsindəki rolu qeyd edildi.

Söhbət zamanı yüksək səviyyəli görüşlərin ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi baxımından önəmi vurğulandı, Litva Respublikasının milli müdafiə naziri Yuozas Olekasın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyi bildirildi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də “Formula-1”in rəhbəri Bernard Ekklstounu qəbul edib.

## Şərur rayonunun Diyadin kəndi abad yaşayış məntəqəsinə çevrilmişdir

Naxçıvan Muxtar Respublikası 90 illik yubileyini sosial-iqtisadi sahədə qazanılan yüksək nailiyyətlər, həyata keçirilən çoxşaxəli quruculuq tədbirləri ilə qeyd edir. “Muxtariyyət ili” olan 2014-cü ildə də muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində kompleks abadlıq-quruculuq işləri görülür. Həyata keçirilən quruculuq tədbirləri muxtar respublikanın ən böyük yaşayış məntəqəsi olan Şərur rayonunun simasını da tamamilə dəyişmişdir. Bu gün təkcə Şərur şəhəri deyil, rayonun kəndləri də quruculuq tədbirləri sayəsində müasir görkəm almış, sakinlərin rahat və firavan yaşayışı təmin olunmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, oktyabrın 8-də Şərur rayonunun Diyadin kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Diyadin kəndində yeni məktəb binasının açılışı olmuşdur







Oktyabrın 8-də Diyadin kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Məktəbin direktoru Muxtar Ələkbərov çıxış edərək demişdir ki, yeni binanın istifadəyə verilməsi ilə Diyadin kənd tam orta məktəbinin maddi-texniki bazası xeyli gücləndirilmişdir. Məktəb binasında yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsi üçün bütün imkanlar yaradılmışdır. Görülən bu işlər muxtar respublikada təhsilin inkişafına göstərilən qayğı kimi məktəbin kollektivini səylə, təşəbbüskarlıqla işləməyə ruhlandırır. Muxtar Ələkbərov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Diyadin kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: “Təhsil sistemi hər bir ölkənin milli sərvətidir. Təhsil sistemini düzgün qurmadan, bu sahədə islahatlar həyata keçirmədən ümumi inkişafı təmin etmək mümkün deyil. Bu gün müasir dünyada hər bir dövlətin sərvəti yalnız onun yeraltı və yerüstü resursları ilə deyil, həm də malik olduğu müasir təhsil sistemi ilə ölçülür. Bu məsələnin vacibliyini nəzərə alan ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Təhsil sahəsində əldə etdiyimiz nailiyyətlər bizim milli sərvətimizdir”.***

Ali Məclisin Sədri demişdir: “Müasir təhsil sisteminin qurulması dünya təhsil sisteminə inteqrasiyada vacib şərtdir. Bu istiqamətdə Azərbaycanda, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ardıcıl tədbirlər həyata keçirilir, təhsil sisteminin maddi-texniki bazası gücləndirilir. Bu gün sərhəd kəndi olan Diyadində istifadəyə verilən yeni məktəb binası da təhsil quruculuğu sahəsində görülən işlərin tərkib hissəsidir. Məktəbdə müasir tədris şəraiti yaradılmış, internetə çıxışı olan kompüter dəstləri, elektron lövhələr, laboratoriyalar və digər təhsil avadanlıqları kollektivin istifadəsinə verilmişdir. Məktəb pedaqoji kadrlarla tam təmin olunmuşdur. Bütün bunlar tədrisin günün tələbləri səviyyəsində qurulmasına, eləcə də gələcəkdə məktəbin nailiyyətlərinin artırılmasına imkan verəcəkdir”.

Ali Məclisin Sədri demişdir: “Məktəbdə nailiyyətləri artırmaq üçün, ilk növbədə, nizam-intizam yaradılmalı, müəllim-şagird münasibətləri qarşılıqlı hörmət və tələbkarlıq prinsipləri üzərində qurulmalıdır. Müəllim nüfuzu qorunmalı, pedaqoji kollektiv daha məsuliyyətlə çalışmalı, vəzifələrini layiqincə yerinə yetirməlidirlər. Təhsilli və vətənpərvər gənclik hər bir ölkənin gələcəyidir. Müəllimlərin qarşısında ölkəmizin gələcəyini yetişdirmək kimi mühüm bir vəzifə durur. Ona görə də pedaqoji kollektiv şagirdlərlə fərdi qaydada məşğul olmalı, təhsilli və vətənpərvər gənc nəslin yetişdirilməsi daim diqqət mərkəzində saxlanılmalıdır. Ölkəmizdə təhsil sahəsində həyata keçirilən tədbirlər, yaradılan şərait, təhsil işçilərinə göstərilən qayğı bu vəzifələri uğurla yerinə yetirməyə imkan verəcəkdir”.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında kollektivə uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, 1995-ci ildən ümumi orta məktəb kimi fəaliyyətə başlayan təhsil ocağına şagird və müəllim kontingentinin artması ilə əlaqədar 2014-2015-ci tədris ilindən etibarən tam orta məktəb statusu verilmişdir. Üçmərtəbəli binada hərtərəfli tədris şəraiti yaradılmış, 2-si elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, şahmat və müəllimlər otaqları, kitabxana və idman zalı istifadəyə verilmiş, həyətdə açıq idman qurğuları quraşdırılmışdır.

Məktəbin kitabxana fondunda 2 mindən çox kitab vardır. Kitabxana dərsdənkənar mütaliə üçün lazım olan ədəbiyyatlarla tam təmin olunmuşdur.

Bu ildən Diyadin kənd tam orta məktəbi də elektron təhsilə keçəcəkdir. Kompüter otağındakı kompüterlər sürətli internet şəbəkəsinə qoşulmuşdur. Elektron lövhəli siniflərdə yaradılan şərait isə dərslərin müasir informasiya texnologiyaları əsasında keçilməsinə imkan verəcəkdir. Eyni zamanda hər bir fənnə aid xüsusi multimedia proqramlarından istifadə şagirdlərin müasir texnologiyalardan istifadə bacarıqlarına yiyələnməsinə geniş imkanlar açacaqdır.

Elektron lövhəli sinfə baxış zamanı Ali Məclisin Sədri muxtar respublikanın 58 ümumtəhsil məktəbi ilə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi arasında videobağlantı vasitəsi ilə “Bəşər sivilizasiyasının ilk beşiyi: Naxçıvanqala” mövzusunda keçilən dərsi izləmişdir.

Kimya-biologiya və fizika laboratoriyaları müasirlik və təchizat baxımından diqqəti cəlb edir. Laboratoriyaların hər birində təcrübə avadanlıqları quraşdırılmış, əlverişli tədris-təcrübə mühiti yaradılmışdır. Fizika laboratoriyasında quraşdırılan elektron lövhə isə biliklərin müasir texnologiyalar əsasında möhkəmləndirilməsinə kömək edəcəkdir.

Uşaqların əqli inkişafına xidmət edən mühüm vasitə kimi şahmatın tədrisi vacib məsələdir. Son illər ümumtəhsil məktəblərində şahmatın tədrisinə diqqətin artırılması da bu məqsədə xidmət edir.

*Ardı 2-ci səhifədə*

Diyadin kənd tam orta məktəbində də şahmat sinfi istifadəyə verilmişdir. Sinif otağı şahmat masaları, maqnitli lövhələr və digər əyani vasitələrlə təmin olunmuşdur.

Məktəbdəki idman zalı və açıq idman qurğuları, hərbi kabinə yüksək intellektual səviyyəyə malik, fiziki cəhətdən sağlam və vətənpərvər gənclərin yetişdirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri müəllimlərlə söhbət zamanı qeyd etmişdir ki, təhsilli və vətənpərvər gənclərin yetişdirilməsi üçün məktəbdə hər cür şərait yaradılmış, müasir texnologiyalar və tədris avadanlıqları quraşdırılmışdır. Müəllimlər yaradılanlardan səmərəli istifadə etməli, şagirdlərin gələcək peşə seçiminə diqqəti artırmalıdırlar. Bu gün ölkəmizdə pilləli təhsil sistemi tətbiq olunur. Ona görə də gənclərin ali təhsil alması ilə yanaşı, onların peşə təhsilinə istiqamətləndirilməsi də daim nəzarətdə saxlanılmalıdır. O gənc dövlət və xalq üçün faydalıdır ki, onun peşəsi vardır. Ali təhsillə yanaşı, peşə təhsilinin əsası da ümumtəhsil məktəblərində qoyulur. Pedaqoji kollektivlər bütün bunları daim diqqət mərkəzində saxlamalı, ölkəmiz üçün vətənpərvər və intellektli kadrlar hazırlanmalıdır.

Məktəbin müəllimləri Diyadin kəndində istifadəyə verilən məktəb binasını muxtar respublikada təhsilin inkişafına göstərilən qayğının daha bir ifadəsi kimi dəyərləndirmiş, savadlı və vətənpərvər gənclərin yetişdirilməsi istiqamətində səylə çalışacaqlarına söz vermişlər.

Məktəbin həyətində abadlıq işləri görülmüş, fərdi qazanxana quraşdırılmışdır.



## Kənd mərkəzində müasir iş şəraiti yaradılmışdır






Kənd mərkəzləri Naxçıvanın müasir kənd modelini özündə təcəssüm etdirən obyektlərdəndir. Sakinlərin zəruri sosial xidmətlərlə təminatının mərkəzləşmiş qaydada təşkilinə şərait yaradan bu mərkəzlərin inşası cari ildə də davam etdirilmişdir.

Oktyabrın 8-də Diyadin kəndində yeni kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kənd mərkəzinin açılışını etmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, ikimərtəbəli kənd mərkəzində kitabxana, klub, rabitə evi, 55 yerlik iclas zalı, polis sahə və feldşer-mama məntəqələri, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik üçün müasir iş otaqları vardır. Mərkəzdə klub və kitabxananın istifadəyə verilməsi sakinlərin asudə vaxtının səmərəli təşkilinə xidmət edəcəkdir. Kitabxana fondunda 3 min 659 kitab saxlanılır.

Quruculuq tədbirləri çərçivəsində kənddə müasir rabitə sistemi qurulmuşdur. Rabitə evində müasir elektrontipli ATS qurulmuş, əhaliyə bank xidmətinin göstərilməsi təmin edilmişdir. Həmçinin burada POS-terminal qoyulmuş, kommunal xidmət haqlarının poçt şöbəsi vasitəsilə ödənilməsinə başlanılmışdır.

Yeni Azərbaycan Partiyası Diyadin kənd ərazi ilk təşkilatının iş otağına baxış zamanı bildirilmişdir ki, kənddə 41 nəfər Yeni Azərbaycan Partiyasının üzvüdür. Onlardan 19-u gənclər, 5-i isə qadınlardır.

Kənddə tibb xidməti günün tələbləri səviyyəsində təşkil olunacaqdır. Feldşer-mama məntəqəsində mama və manipulyasiya otaqları istifadəyə verilmiş, otaqların hər biri müasir avadanlıq və bütün lazımi dərman vasitələri ilə təchiz edilmişdir. Bildirilmişdir ki, əhalinin sağlamlığının qorunması vacib məsələdir. Ona görə də tibb işçiləri yaradılan şəraitdən səmərəli istifadə etməli, insanlara nümunəvi səhiyyə xidməti göstərməlidirlər.

## Diyadində yeni xidmət mərkəzi istifadəyə verilmişdir






Həmin gün Diyadin kəndində yeni xidmət mərkəzi də istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri açılışı bildirən lenti kəsmiş, xidmət mərkəzi ilə tanış olmuşdur.

Bildirilmişdir ki, xidmət mərkəzinin fəaliyyəti kənd əhalisinin tələbatına uyğun qurulmuşdur. Burada bərbərxana və qadın gözəllik salonu vardır. Həmçinin mərkəzdə iki mağaza və ət satışı yeri də fəaliyyət göstərir. Mağazalardan birində ərzaq, digərində isə müxtəlif sənaye məhsullarının satışı həyata keçirilir. Xidmət mərkəzinin istifadəyə verilməsi ilə 5 nəfər işlə təmin olunmuşdur.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra kənd sakinləri ilə görüşən Ali Məclisin Sədri demişdir: “Kənd yaşayış məntəqələrinin müasirləşdirilməsi əhalinin rahatlığının təmin olunmasına hesablanmış tədbirlərdir. Bu gün Diyadin kəndində müasir məktəb binasının, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsi də sakinlərin rahatlığına xidmət edəcəkdir. Bu tədbirlər kənddə məskunlaşmanın artmasına, əhalinin torpaqlardan, fərdi təsərrüfatlardan səmərəli istifadə etməsinə şərait yaradacaqdır. Kəndin bərəkətli torpaqları, zəhmətkeş insanları vardır. Bu da əkinçiliyin inkişafına, əhalinin məşğulluğunun təmin olunmasına və rifahının yüksəldilməsinə imkan verəcəkdir. Sakinlər dövlətimiz tərəfindən yaradılan bu şəraitdən səmərəli istifadə etməli, bundan sonra da kəndin abadlaşmasına çalışmalı, tikilənlər, qurulanlar qorunub saxlanılmalıdır”.




Kənd sakini Teymur Babayev demişdir ki, Diyadin kəndində yeni sosial obyektlərin istifadəyə verilməsi, kənd yollarının yenidən qurulması sakinlərin böyük sevincinə səbəb olmuşdur. Muxtar respublikanın digər yaşayış məntəqələri kimi, Diyadin kəndinin inkişafına da daim diqqət göstərilir. Araz çayının sahilində yerləşən bu yaşayış məntəqəsində insanların yaşayışı üçün hər cür şərait yaradılmışdır. Aparılan sahilbərkitmə işləri kənddə torpaqların yuyulmasının qarşısını almışdır. Bu da əkinçiliyin inkişafına səbəb olmuşdur. Kənddə heyvandarlıq inkişaf etdirilir, fərdi təsərrüfatlar genişləndirilir. Teymur Babayev bütün bunları yaradılan şəraitin nəticəsi kimi dəyərləndirmiş, kənd sakinləri adından minnətdarlıq etmişdir.

Ardı 3-cü səhifədə

* * *

Diyadin kəndində bir sıra abadlıq işləri də görülmüş, Diyadin kəndi ərazisində 1580 metr, Tumaslı kəndi ərazisində isə 600 metr məsafədə kənddaxili yollara asfalt örtük salınmış, 340 metrlik beton kanal və 8 su keçidi tikilmişdir. Abadlıq tədbirləri zamanı rabitə və elektrik şəbəkələrinin təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılmış, yeni rabitə və elektrik dirəkləri basdırılmış, 4 min metrdən çox fiber-optik, 1050 metr yeraltı, 2 min 550 metr uzunluğunda yerüstü rabitə kabelləri və 3 min 600 metr məsafədə elektrik xətti çəkilmişdir. 500 metr uzunluğunda müxtəlif diametrli qaz xətlərinin yeri dəyişdirilmiş, yeni tikililərə 230 metr uzunluğunda qaz xətti çəkilmişdir. Həmçinin məktəb tikintisi ilə əlaqədar evi plana düşmüş 1 ailə üçün 2 otaqlı fərdi ev inşa olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



*9 oktyabr Ümumdünya Poçt Günüdür*

# Muxtar respublikada əhaliyə nümunəvi poçt xidməti göstərilir

***Azərbaycan 1993-cü ildə Ümumdünya Poçt İttifaqının üzvlüyünə qəbul olunmuşdur. Həmin tarixdən etibarən hər il oktyabrın 9-u ölkəmizdə də "Ümumdünya Poçt Günü" kimi qeyd olunur.***

Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafında əsaslı dönüş ötən əsrin 70-ci illərində başlanmışdır. Ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərliyinin ilk illərindən başlayaraq ictimai-siyasi və sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, rabitə sahəsində də əsaslı dəyişikliklər baş vermiş, o dövrün tələblərinə uyğun poçt və rabitə sistemi yaradılmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra isə poçt sistemi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ulu öndərin rəhbərliyi ilə 1997-ci ilin mart ayında poçt rabitəsinin "Dirçəliş və inkişaf proqramı" qəbul olunmuş, həmin ilin dekabr ayında isə "1998-2003-cü illər üçün poçt rabitəsinin inkişaf konsepsiyası" təsdiq edilmişdir.

XXI əsr informasiya əsri kimi xarakterizə edilir. Bütün bunları uzaqgörənliklə dəyərləndirən dünya şöhrətli siyasi xadim, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: ***"İndiki zamanda rabitə hər bir insan üçün lazım olan bir vasitədir".*** Dahi şəxsiyyətin imzaladığı 2003-cü il 17 fevral tarixli Sərəncamla təsdiq ediyi 2003-2012-ci illər üzrə Azərbaycanın inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyada Azərbaycanda informasiya texnologiyaları sahəsində məqsədyönlü fəaliyyət və gələcək perspektivlər müəyyən olunmuşdur.

Hazırda bu strategiya ümummilli liderin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Poçt rabitəsi yeni inkişaf dövrünü yaşayır. 2004-cü ildə "Poçt haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi bu sahənin qanunvericilik bazasını xeyli gücləndirmişdir. Bu gün ölkəmizdə bütün poçt şöbələrinin müasir standartlara uyğun avtomatlaşdırılması, texniki avadanlıqlarla tam təchizatı və informasiya texnologiyalarının ən son nailiyyətlərinin bu sahədə tətbiqi göstərilən xidmətlərin keyfiyyətinə və etibarlılığına təminat verir. Artıq Azərbaycan poçtu dünya poçt sisteminə inteqrasiya yolunda uğurlu addımlar atmaqdadır.

Naxçıvan Muxtar Respublikasının poçt-rabitə sistemi də özünəməxsus inkişaf yolu keçmişdir. Naxçıvanda ilk poçt ekspedisiyası hələ 1828-ci ildə yaradılmış, 1864-cü ildə Tiflis-Naxçıvan teleqraf xətti çəkilmişdir. 1918-ci ildə Naxçıvan şəhərində ilk poçt kontoru açılmış, 1927-ci ildə isə Ordubad, Culfa, Şərur poçt-teleqraf şəbəkələri və Naxçıvan şəhərində Poçt-Teleqraf Agentliyi yaradılmışdır. Sonrakı illərdə durğunluq dövrünü yaşayan Naxçıvanın poçt xidməti 1996-cı ildən başlayaraq öz dirçəliş dövrünə qədəm qoymuşdur. Həmin dövrdən etibarən Naxçıvanda poçt xidmətlərinin keyfiyyəti mərhələ-mərhələ yüksəldilmiş, bu sahənin texniki imkanları genişləndirilmişdir. Telekommunikasiya sisteminin modernləşdirilməsi və yeni rabitə şəbəkələrinin istifadəyə verilməsi, poçt bölmələrinin sayının artırılması, birbaşa internetə qoşulmaq imkanına malik olan kompüter mərkəzinin istifadəyə verilməsi ilə Naxçıvan Muxtar Respublikasının informasiya şəbəkəsi xeyli genişləndirilmişdir.

Ötən dövrlər ərzində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində poçt müəssisələrinin bütün növ xidmətlərin təşkili üçün müasir texnika və texnologiya ilə təmin edilməsi işin keyfiyyətinə müsbət təsir göstərmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" 2013-cü il 30 iyul tarixli Sərəncamı bu sahədə görüləcək işlərin miqyasını daha da genişləndirmişdir.

Hazırda muxtar respublika ərazisində 8 poçt filialı və 149 poçt bölməsi fəaliyyət göstərir. Bunlardan 8 poçt filialı və 98 poçt bölməsinin elektron sistemi Naxçıvan şəhərində yerləşən məlumat hesablama mərkəzi şəbəkəsinə qoşulmuş, poçt əməliyyatlarının operativ həyata keçirilməsi təmin olunmuşdur. Poçt filiallarında beynəlxalq və ölkədaxili pul baratlarının, teleqramların göndərilməsi və qəbulu, kommunal xidmət haqlarının ödənişi tamamilə kompüterlər vasitəsilə həyata keçirilir. Bununla yanaşı, internet üzərindən rabitə xidməti haqlarının ödənilməsi də təşkil edilmişdir. Əhaliyə göstərilən poçt xidmətinin keyfiyyətinin daha yüksək səviyyədə təşkil edilməsi üçün poçt filiallarında və bölmələrində POS-terminallar quraşdırılmışdır.

Muxtar respublika ərazisində poçtdaşıma işlərinin yaxşılaşdırılması, beynəlxalq poçtdaşımalarının həyata keçirilməsi üçün "Express Mail Servis", DHL beynəlxalq ekspress poçt xidmətləri fəaliyyət göstərir ki, bu da məktubların, sənədlərin və bağlamaların ən qısa zamanda ünvana etibarlı çatdırılmasını təmin edir. Eyni zamanda göndərişlərin hansı məntəqədə olduğunun internet üzərindən izlənməsinə imkan yaradır.

Bu ilin ötən 8 ayında Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin ünvanına 13 min 495 sayda, 73 min 229 kiloqram çəkidə bağlama daxil olmuş, 1816 sayda, 11 min 106 kiloqram çəkidə bağlama göndərilmişdir. Ümumilikdə, muxtar respublikaya 102 min 402 kiloqram çəkidə poçt göndərişi və bağlamalar daxil olmuşdur. Həmçinin EMS xidməti vasitəsilə muxtar respublikaya 162-si beynəlxalq göndəriş olmaqla, 1993 göndəriş daxil olmuş və göndərilən göndərişlərin sayı 48-i beynəlxalq olmaqla, 822 ədəd təşkil etmişdir. Həmçinin COLVİR sistemi üzrə maniqram ödənişi 7 milyon 566 min 804 manat, qəbulu isə 5 milyon 271 min 869 manat təşkil etmişdir.

Muxtar respublikada poçt sisteminin fəaliyyətinin genişləndirilməsi, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, hər il onlarla yeni rabitə evinin istifadəyə verilməsi əhalinin müasir poçt xidmətlərindən istifadə etməsinə şərait yaradır. Poçt işçiləri bundan sonra da səylə çalışacaq, yaradılan şəraitdən səmərəli istifadə edərək muxtar respublika sakinlərinə daha keyfiyyətli xidmət göstərəcəklər.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

***Dünyaya inteqrasiya yolunu tutan, tərəqqi əsrinin tələblərinə cavab verməyə çalışan Naxçıvan Dövlət Universitetində son 19 ildə tədrisdə ən müasir texnologiyaların tətbiqi, distant təhsilə keçid, elektron universitet qurulması istiqamətində mühüm işlər görülüb. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) ilə birgə həyata keçirilən "Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsi Azərbaycan ali məktəbləri içərisində ən irihəcmli layihə olmaqla, bu sahədə atılan mühüm addımdır. 2012-ci ildə tərəflər arasında layihə ilə bağlı müqavilə imzalandıqdan sonra KOICA-nın Azərbaycandakı rezident nümayəndəsi xanım Kim Eun-Sukun başçılığı ilə koreyalı mütəxəssislərdən ibarət qrup müxtəlif vaxtlarda Naxçıvan Dövlət Universitetində olub. Layihənin təqdimatı keçirilib, müzakirələr aparılıb, yerli mütəxəssislər məlumatlandırılıblar. Layihənin həyata keçirilməsinə KOICA tərəfindən 3 milyon 500 min ABŞ dolları həcmində vəsait ayrılıb.***

# Cənubi Koreya ilə təhsil sahəsində əməkdaşlıq genişlənir

Bu ilin may ayında universitetin tədris işləri üzrə prorektoru, dosent Surə Seyidin rəhbərliyi ilə bir qrup nümayəndə heyəti on beş gün müddətinə Cənubi Koreyanın paytaxtı Seul şəhərinə ezam olunub, layihə ilə bağlı təlim keçiblər. Bu günlərdə isə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmovun rəhbərliyi ilə nümayəndə heyəti Cənubi Koreyada olub.

Birhəftəlik səfər çərçivəsində KOICA-nın baş ofisində KOICA ilə bağlı təqdimat keçirilib. Qeyd edək ki, KOICA-nın tərəfdaşlıq etdiyi ölkələrdə 43 nümayəndəliyi mövcuddur. Bu şirkət Azərbaycanda da qrant yardımı və texniki əməkdaşlıq proqramlarını həyata keçirməkdədir. Azərbaycan Texniki Universitetində həyata keçirilən informasiya texnologiyaları ilə bağlı layihə təhsil sahəsindəki uğurlu layihələrdəndir. Görüş zamanı rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında elmin, təhsilin inkişafına göstərilən dövlət qayğısından danışıb. Qeyd olunub ki, Azərbaycanda milli təhsilin inkişafı, müasir texnologiyaların tədrisdə və təhsildə tətbiqi dövlətimiz tərəfindən daim diqqət mərkəzində saxlanılır. Rektor əlavə edib ki, adıçəkilən layihə ilə bağlı həyata keçirilən işlər universitetdə uğurla yekunlaşmaq üzrədir. Hazırda Naxçıvanda olan koreyalı mütəxəssislər portal, distant təhsil, akademik işlər üzrə sistemin və avadanlıqların quraşdırılması, əməliyyatlarla bağlı biliklərin öyrədilməsi ilə məşğuldurlar.




Layihənin icraçı şirkəti "Donqvon CNS"-nin rəhbəri Mun-Seo Park Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsinin qurulmasının onlayn təhsilin təşkili baxımından faydalı olacağını bildirib.

Nümayəndə heyəti Cənubi Koreyanın ali təhsil müəssisələrini ziyarət edib, buradakı ali təhsil sistemi, tədris prosesi ilə yaxından tanış olub. Səfər Kimçonq Universiteti ilə əməkdaşlığın möhkəmlənməsi baxımından da faydalı olub. Xatırladaq ki, Kimçonq Universiteti ilə əlaqələr 2010-cu ildə yaradılıb, 2011-ci ildə qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalanıb. Bu gün hər iki universitet arasında aparılan elmi təcrübə və tələbə mübadiləsi, qarşılıqlı səfərlər əlaqələr sahəsində aparılan səmərəli işin uğurlu davamıdır.

Rektor xanım Sunq Ae Kanq Kimçonq Universiteti haqqında ətraflı məlumat verərək qeyd edib ki, bu ali məktəbdə 20-dən artıq fakültə fəaliyyət göstərir. Universitetdə ingilis dili, tibb, beynəlxalq turizm və otelçilik, incəsənət sahəsi üzrə tədris yüksək səviyyədədir. "Dünyanı sevgi yolu ilə qazanaq!" ideyasını rəhbər tutan bu ali məktəbdə planetimizin dörd qitəsindən təhsil alan tələbələr var. Naxçıvan Dövlət Universitetindən "tərcümə (ingilis dili -Azərbaycan dili"), "hüquqşünaslıq" "stomatologiya" ixtisasları üzrə 3 nəfər birinci kurs tələbəsi 2012-2013-cü tədris ilinin ikinci semestrində tələbə mobilliyinə əsasən, ali təhsillərini Koreyanın Kimçonq Universitetində davam etdirib.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ölkələrarası əlaqələrin inkişafında elm, təhsil sahəsində tərəfdaşlığın rolundan danışıb, Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələrində dost, tərəfdaş universitet olan Kimçonq Universiteti ilə əməkdaşlığın bundan sonra da davamlı olmasını arzulayıb.

Naxçıvanlı qonaqlar universitetdə müasir texnologiyalarla təchiz edilmiş auditoriyalarda olub, koreyalı tələbələrlə görüşüblər. Kimçonq Universitetindəki Hava yolları, otelçilik və turizm fakültəsində restoran və hava yolları xidmətinin öyrədilməsi, praktikası, stomatoloq və diş texniki ali təhsilli tibb bacıları hazırlanan fakültələrdə auditoriyalardakı müasir tibb avadanlıqları, xüsusi stomatoloji kabinələr, laboratoriyalar, qida sənayesinin tədris olunduğu fakültədə şərabçılıq, meyvələrin çeşidlənib xüsusi soyuducu anbarda saxlanılması, şərab istehsalı prosesi, burada hazırlanan keyfiyyətli, müxtəlif çeşidli şərabların sərgisi maraq doğurub.

Koreya Kiber Universitetində keçirilən görüşdə ali məktəbin rektoru, professor Çonq Soon Kim dünyada ilk kiber universitet olan bu ali təhsil ocağının Koreya ali məktəbləri sırasında birinci onluğa daxil olduğunu bildirib. Bir çox xarici universitetlə əməkdaşlığa malik olan bu ali təhsil ocağı Koreya tarixinin və mədəniyyətinin təbliği məqsədilə rəsmi səfərlərin təşkili ilə məşğul olan Koreya Fondu ilə əlaqəli fəaliyyət göstərir, 2013-cü ildən etibarən Koreya dilinin pulsuz və sürətli onlayn tədrisini həyata keçirən "Korean Quick" proqramını uğurla həyata keçirir.

Naxçıvan Dövlət Universitetinin rektoru Saleh Məhərrəmov Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında elektron hökumət və elektron universitet quruculuğu, elm və təhsilin müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi vasitəsilə inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə məlumat verib.

***Yekun tədbirdə KOICA şirkətinin sertifikatları təqdim olunub, layihənin uğurla gerçəkləşməsi, əməkdaşlığın davamlı olması ilə bağlı fikirlər səsləndirilib.***

**Mehriban SULTAN**

# Hər bir millətin tərəqqisi təhsildən, təhsilin tərəqqisi isə müəllimlərin fəaliyyətindən asılıdır

## Müəllimlərimizin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir

***Bilikli, yüksək intellektual səviyyəyə malik vətənpərvər gənclər yetişdirmək kimi şərəfli işin öhdəsindən layiqincə gələn müəllimlərin əməyi ölkəmizdə hər zaman yüksək qiymətləndirilir, onlar fəxri adlara layiq görülür, orden və medallarla təltif olunurlar. Azərbaycan Respublikası Prezidentinin 30 sentyabr 2014-cü il tarixli Sərəncamı ilə muxtar respublikada fəaliyyət göstərən 4 müəllim "Azərbaycan Respublikasının əməkdar müəllimi" fəxri adına layiq görülmüş, 4 nəfər müəllim isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 3 oktyabr 2014-cü il tarixli Sərəncamı ilə bir qrup təhsil işçisi "Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi" və "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adlarına layiq görülmüşdür. Həmin müəllimlərdən bir neçəsini redaksiyamıza dəvət edib onlarla həmsöhbət olduq:***

***Rzaqulu HƏSƏNOV – Azərbaycan Respublikasının əməkdar müəllimi:*** – Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbdə "tarix" fənnini tədris edirəm. Mən də fəxri ada layiq görülən digər müəllimlər kimi sevinirəm. "Azərbaycan Respublikasının əməkdar müəllimi" fəxri adına layiq görülmək sıravi bir müəllim üçün böyük xoşbəxtlikdir. Bu günün müəllimləri xoşbəxtdirlər ki, belə bir qayğı ilə əhatə olunan təhsil sahəsində fəaliyyət göstərirlər. Muxtar respublikamızda təhsilə göstərilən diqqət və qayğı çox yüksək səviyyədədir. Son illər muxtar respublikamızın müxtəlif ünvanlarında yeni məktəb binalarının tikilərək və ya yenidən qurularaq istifadəyə verilməsi təhsilə göstərilən xüsusi diqqətin ifadəsidir. Bu da məktəbdə aparıcı sima olan müəllimləri öz vəzifə borclarına məsuliyyətlə yanaşmağa, elmin sirlərini öyrətdikləri şagirdləri həm də dövlətçiliyimizə, müstəqilliyimizə məhəbbət ruhunda tərbiyələndirməyə səfərbər edir. Müəllimlərimiz yaradılmış şəraitdən səmərəli istifadə etməyə səy göstərir, ildən-ilə uğurlarını artırırlar. Onların çəkdikləri zəhmət də əvəzsiz qalmır.



***Əzim HACIYEV – Azərbaycan Respublikasının əməkdar müəllimi:*** – Bu gün ölkəmizdə qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirən, dövlətinə və xalqına sədaqətlə xidmət edən vətənpərvər insanların əməyi yüksək qiymətləndirilir. Bu insanlar arasında olmağım bir müəllim kimi məni dünyanın ən xoşbəxt insanı etdi. Dərs dediyim Culfa rayon Bənəniyar kənd tam orta məktəbinin pedaqoji kollektivi də mənim qədər sevinc hissi keçirir. Çünki bu təkcə mənim əməyimə deyil, həm də məktəbimizin pedaqoji kollektivinin əməyinə verilən yüksək qiymətdir. Çalışacağam ki, bundan sonra da bilik və bacarığımı gənclərin yaxşı təhsil almalarına sərf edim. Mən fəxr edirəm ki, bir vaxtlar dərs dediyim şagirdlərin çoxu ali təhsil almış və bu gün müxtəlif idarə və müəssisələrdə fəaliyyətlərini davam etdirirlər. Hələ qarşımızda uzun yol var: vətənpərvər, təhsilli gənclər yetişdirmək və cəmiyyət üçün faydalı fərdlər hazırlamaq. Bu, müəllimlər üçün prioritet vəzifə kimi müəyyənləşdirilib.



***Aidə ALLAHVERDİYEVA – Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi:*** – 1998-ci ildən pedaqoji fəaliyyətə başlamışam. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə fəxri ada layiq görülməyimə görə qürur hissi duyuram. Bu gün ölkəmizin inkişafında öz fəaliyyəti ilə fərqlənənlərin, Vətəninə və xalqına xidmətdə nümunə göstərənlərin əməyinə dövlətimiz tərəfindən daim yüksək qiymət verilir. Əməyimizə verilən bu qiymət bizdə böyük ruh yüksəkliyi yaradır, qurub-yaratmaq əzmimizi artırır, bizi gələcəkdə daha məhsuldar fəaliyyət göstərməyə sövq edir. Direktoru olduğum Naxçıvan Qızlar Liseyində bundan sonra da hərtərəfli biliyə malik gənclərin yetişməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm. Məktəbimizdə təhsil alan naxçıvanlı qızlar elm, bilik almaqla yanaşı, onlara milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz daha dərindən öyrədilir. Onu da qeyd edim ki, liseyin pedaqoji kollektivi qazanılan uğurları son hədd hesab etmir. Daha böyük nailiyyətlər əldə etmək üçün pedaqogikanın son nailiyyətlərindən istifadəyə üstünlük verilir, dünya təhsil sistemindəki yeniliklərin tədris prosesində tətbiqinə səy göstərilir. Ən önəmlisi isə kollektiv gələcək Azərbaycan xanımlarına Möminə xatın ucalığını, Nigar, Həcər qeyrətini aşılamaq, onları bu keyfiyyətlərə sahib xanımlar kimi yetişdirmək üçün bütün imkanlarından istifadə edir. Çünki liseyin müəllimləri yaxşı bilirlər ki, bu günün qızları gələcəyin analarıdır. Bu gün yüksək insani keyfiyyətləri özündə cəmləşdirmiş qızlarımız, gələcək analarımız övladlarını belə tərbiyə edəcəklər.



***Fatma ALLAHVERDİYEVA – Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi:*** – İlk əmək fəaliyyətimə 1974-cü ildə Naxçıvan şəhərindəki 7 nömrəli tam orta məktəbdə başlamışam. 1985-ci ildən isə 12 nömrəli tam orta məktəbdə "kimya" fənnini tədris edirəm. Bu illər ərzində tədris etdiyim ixtisasın sirlərini şagirdlərimə mənimsətmək üçün əlimdən gələni əsirgəməmişəm. Sevinirəm ki, zəhmətim hədər getməyib. Bu gün muxtar respublikada gənclərin maariflənməsi üçün yorulmadan çalışan müəllimlərin əməyinin qiymətləndirilməsi, onların hərtərəfli qayğı ilə əhatə olunması diqqət mərkəzindədir. Sosial statusundan, tutduğu vəzifədən asılı olmayaraq, hər bir insan cəmiyyətdəki mövqeyinə, şəxsiyyət kimi formalaşmasına, qazandığı biliklərinə görə məhz müəllimə borcludur. Müdriklərin fikrinə görə, "hər bir millətin tərəqqisi təhsillə, təhsilin tərəqqisi isə müəllimlərlə bağlıdır". "Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi" fəxri adına layiq görülməyimi həyatımın ən yüksək mükafatı hesab edirəm. Mənə göstərilən bu diqqət və qayğıya görə dərin minnətdarlığımı bildirirəm. Əmin edirəm ki, göstərilən bu etimadı doğruldacaq, əməyimə verilən bu yüksək qiymətə əməli işimlə cavab verəcək, fəaliyyət göstərdiyim təhsil ocağında əsl vətənpərvər, dövlətini, xalqını, torpağını sevən savadlı, intellektli gəncliyin yetişməsində savadımı, bacarığımı və var qüvvəmi əsirgəməyəcəyəm.



***Xalidə SADİQOVA – "Tərəqqi" medallı:*** – Bu gün ölkəmizdə Heydər Əliyev siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda sabitlik və sosial-iqtisadi yüksəliş təmin edilmişdir. Bu yüksəliş bütün sahələrlə yanaşı, təhsilin də hərtərəfli inkişafına səbəb olmuşdur. Strateji sahə olan təhsil bu gün Azərbaycan dövlətinin sosial inkişaf xəttində mühüm yer tutur. Ona görə ki, təhsilə qoyulan sərmayə, göstərilən qayğı təkcə ölkəmizin bu gününə deyil, eyni zamanda gələcəyinə xidmət edir, yüksək intellektual potensialın formalaşmasını şərtləndirir. Bu gün müəllimi olduğum Babək rayon Nehrəm kənd 2 nömrəli tam orta məktəb də hərtərəfli qayğı ilə əhatə olunub. Sabahımız, gələcəyimiz bu gün məktəblərdə yetişdirilən gənclərdən asılıdır. Bu işdə biz müəllimlərin rolu böyükdür. Müəllim kimi hər zaman vətənpərvər və savadlı gənclər yetişdirməyi fəaliyyətimdə əsas tutmuşam. Bu gün zəhmətimin hədər getmədiyini görmək mənim üçün böyük xoşbəxtlikdir. "Tərəqqi" medalı ilə təltif olundum. Heç kimin əməyi diqqətdən yayınmır. Dövlətimizin əməyimə verdiyi bu qiymət mənim bayram sevincimi ikiqat artırdı. Biz müəllimlər gərək elə çalışaq ki, ümummilli liderimiz Heydər Əliyevin bizə ərməğan qoyduğu, onun vətəndaşları olduğumuz üçün fəxr etdiyimiz Azərbaycanımızı hər zaman zirvələrdə tutacaq sağlam, vətənpərvər gənclik yetişdirək.



✍ **Sara ƏZİMOVA**

## "Nuh yurdu" intellektual oyununun birinci mərhələsi keçirilib

Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Yeni Azərbaycan Partiyası (YAP) Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və "Naxçıvan Muxtar Respublika Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə muxtar respublikanın rayon və şəhərlərində rayon, şəhər Gənclər və İdman idarələri, Təhsil şöbələri və YAP rayon, şəhər təşkilatlarının gənclər birlikləri tərəfindən Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş yeniyetmələr arasında "Nuh yurdu" intellektual oyununun birinci mərhələsi keçirilib. İntellektual oyunda iştirakçılara Azərbaycan tarixindən və ümumi dünyagörüşündən ibarət 50 sual təqdim edilib və suallar iştirakçılar tərəfindən fərdi şəkildə cavablandırılıb.

"Nuh yurdu" intellektual oyununun keçirilməsində məqsəd yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onların asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir.

✍ **Ceyhun MƏMMƏDOV**

*Yeni nəşrlər*

## Bəşəri duyğuları əks etdirən kitab

***Bu günlərdə Əməkdar elm xadimi, professor Oruc Həsənlinin və İstanbul Nişantaşı Universitetinin psixoloq-müəllimi, dosent doktor Davud İbrahimoğlunun müəllifi olduqları "İnsan psikolojisinin sihirli dünyası – kıskançlık" adlı kitabı türk dilində çapdan çıxmışdır.***

Bir çox bədii və ya elmi yaradıcılıq məhsulları vardır ki, onlar təkcə yazıldığı bölgənin, yaxud dövlətin deyil, bütün bəşəriyyətin məhsuluna çevrilir. Hamı ondan faydalanır, bəhrələnir. Bu cür ədəbi və ya elmi əsər cəmiyyətin inkişafına, elmi dəyərlərdən insan həyatının yaxşılaşmasına, iqtisadi və ya mənəvi inkişafına az da olmuş olsa, kömək edirsə, insanların həyatı dərk etməsinə istiqamət verirsə, o əsər təqdirəlayiqdir.

Atalar deyir ki, "İnsan köçəri quşdur". Bəzi kitablar da belədir. Çap olunduğu mətbəədən başlanan yolu dünyanın müxtəlif ölkələrindən keçir. Və bu kitablar müəllifinin kimliyini, fikir və düşüncələrini ortaya qoyur.

Ötən ilin iyun ayında çap olunan "Sirli dünya: qısqanclıq" kitabının da sorağı bu gün İstanbuldan gəlir. Nişantaşı Universitetinin pozitiv psixologiya üzrə psixoloqu, dosent doktor Davud İbrahimoğlu kitabı yüksək səviyyədə dəyərləndirmiş, kitab haqqında müəllifə öz əlavə fikirlərini bildirmiş və ikinci bölməni yazmaqla ikinci müəlliflik hüququnu qazanmışdır. Kitabı türk dilinə çevirən Davud İbrahimoğlu bu gün qısqanclığın törətdiyi fəsadlarla Türkiyədə, o cümlədən dünyanın bütün ölkələrində mövcud olan qısqanclıq bəlasının vahid düşüncə tərzindən qaynaqlandığı qənaətini ortaya qoyaraq yazır ki, qısqanclıq cəmiyyət içindəki yaxın münasibətdə ən güclü, geniş yayılmış və məhvedici duyğulardan biridir. Yaş həddi nəzərə alınmadan uşaqlıq, gənclik və yetkinlik dövründə daha çox nəzərə çarpmaqdadır. Müəyyən hədd daxilində qaldığında, əslində, faydalı kimi görünsə də, cütlər arasında inamsızlığın nəticəsi kimi bəzən ölümlərə belə, səbəbolma dərəcəsinə də çata bilir.

Kitabda qısqanclıq müxtəlif aspektlərdən araşdırılmış və müəlliflərin gəldiyi qənaətlə nəticələnmişdir. "Qısqanclığın davranışdakı qabarıq təzahür formaları", "Qısqanclığı yaradan əsas səbəblər", "Bütün hisslərdən üstün qısqanclıq", "Ailədə qısqanclıq", "İslam dini və qısqanclıq", "Qısqanclığın sağlamlığa təsiri", "Qısqanclıq dostumuzdur, yoxsa düşmənimiz?" kimi bölmələrdə müəlliflər gündəlik həyatda baş verən qısqanclıq hadisələrinə psixoloji baxımdan yanaşmış, həyat həqiqətlərinə yanlış münasibətin forması kimi qısqanclığı təqdim etmişlər. İkinci bölmədə "Qısqanclıqla bağlı anket çalışmaları", kitabın sonunda isə ailədaxili qısqanclığa dair anket sorğusu verilmişdir.




Müəlliflər kitabda araşdırılması vacib olan bir sahəyə – qısqanclıq məsələlərinə ciddi və dərin münasibət bildirməklə həyatda baş verən bir çox mənfi halların cavabını açıqlamağın vacibliyini nəzərdə tutmuşlar.

Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, müəlliflər kitabda qısqanclığı doğuran səbəbləri və aradan qaldırılması yolları ilə bağlı sorğuların keçirilməsini, test tapşırıqlarının cavablandırılmasından irəli gələn nəticələrin reallığının vacibliyini qarşıya qoyurlar.

Professor Oruc Həsənli və dosent doktor Davud İbrahimoğlu kitabda daha çox qısqanclığı doğuran səbəbləri və onun aradan qaldırılmasında tərəflərin – ərlə arvad, nişanlı oğlanla qız arasındakı qısqanclığın törədə biləcəyi fəsadları geniş izah edirlər. Kitabda daha çox "sədaqətsizlik", "vəfasızlıq" kimi ifadələrin işlədilməsinin törətdiyi acı nəticələr həyati misallarla izah olunur, "inam", "etibar" kimi ifadələrin beyinlərə həkk olunmasının vacibliyi bildirilir.

Kitab, müəlliflərin də qeyd etdiyi kimi, bugünkü ailə və cəmiyyət, sosial mühit, ailə və uşaq tərbiyəsi, cəmiyyət və gənclərin probleminin, bəzən isə əsassız qısqanclıq hisslərinin fəsad verməsi, onların araşdırılması, düzgün yollarının üzə çıxarılması zərurətindən yazılmışdır.

Əməkdar elm xadimi, professor Oruc Həsənlinin və İstanbul Nişantaşı Universitetinin psixoloq-müəllimi, dosent doktor Davud İbrahimoğlunun "İnsan psikolojisinin sihirli dünyası – kıskançlık" adlı kitabının valideynlər, tərbiyəçilər, məktəb psixoloqları, hər bir ailə üzvü və yeniyetmələr, ələlxüsus, gənc ailələr üçün çox faydalı olacağını düşünürük.

**Həsənəli EYVAZLI**
***filologiya üzrə fəlsəfə doktoru***

**İtmişdir**

Naxçıvan şəhəri, Nizami küçəsi, bina 53$^A$, mənzil 9-da yaşayan Allahyarov Orxan Tahir oğlunun adına 18.02.2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 0019571 seriya nömrəli çıxarış və 8248 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 851